# QURANİ-KƏRİMİN NAZİL OLMASINDAN KİTABLAŞMASINA QƏDƏRKİ TARİXİ

***f.f.d. Mirniyaz Mürsəl oğlu Mürsəlov***
*BDU-nun İlahiyyat fakültəsinin*
*İslam Elmləri kafedrasının müəllimi*

**Açar sözlər:** Quran, vəhy, müshəf, istinsah
**Key words:** Koran, vahy, mushaf, istinsah
**Ключевые слова:** Коран, вахий, мусхаф, истинсах

Quran kəlməsinin lüğəvi mənası və hansı kökdən törədiyi barədə İslam alimləri fərqli görüşlər irəli sürmüşdür. Bu görüşlərin ortaya qoyulmasında Quran kəlməsinin etimologiyasının da böyük rolu olmuşdur. Ümumi olaraq isə, əsli etibarı ilə bu kəlmənin həmzəli və həmzəsiz oxunması baxımından alimləri iki yerə ayırmaq mümkündür.

Quran kəlməsinin həmzəsiz olduğunu qəbul edənlərin fikrincə bu söz həmzəsiz olub, heç bir kökdən törəməmişdir. Quran Tövrat və İncil kimi Allahın kəlamına verilən xüsusi bir addır. Əgər bu kəlmə "oxudu" mənasını verən "qaraə" (قرأ) kökündən törəmiş olsaydı, hər oxunan şeyə Quran deyilməsi lazım gələrdi. Bu fikri Məhəmməd ibn İdris əş-Şafii (v.204/819) irəli sürmüşdür [29, 18].

Quran kəlməsinin hansı kökdən törəməsi barədə irəli sürülən başqa bir qənaətə görə bu kəlmə "qarinətun" (قرينة) isminin cəmi olan "qarainu" (قرائن) sözündən törəmişdir. Dəlil və sübut mənalarına gələn bu sözün Qurana ad olaraq verilməsinin səbəbi də Qurandakı ayələrin əhatə etdiyi mövzular, nəzm, vəzn, fasilə və ahəng baxımından bir-birinə bənzəməsi və bir-birinə dəlil təşkil etməsidir. Göründüyü kimi "qarainu" (قرائن) kəlməsindəki həmzə kəlmənin əslində olmayıb "qarinətun" (قرينة) kökündəki "yə"nin (ي) yerinə gəlmişdir, "nun" (ن) hərfi isə, sözün kök samitlərindəndir. Bu fikir, Əbu Zəkəriyyə Yəhya ibn Ziyad əl-Fərraya (v. 207/822) aid edilməkdədir [3,31; 28, I, 51].

Qeyd edilən kateqoriyaya daxil olan bəzi alimlər Quran kəlməsinin "qaranə" (قرن) kökündən törədiyini söyləmişlər. Çünki bu kəlmə bir şeyi başqa bir şeyə

yaxınlaşdırmaq, birləşdirmək mənalarını verir. Qurandakı surələr və ayələr də bir-birlərinə yaxınlıq və bərabərlik təşkil edirlər [26, I, 278]. Əbul-Həsən əl-Əş`əri (v. 324/936) bu fikri müdafiə etmişdir. Əbu Bəkr ibn Mücahid (ö.324/936) də, İmam Əbu Əmr ibn əl-Ə`lanın (v. 154/771) Quran kəlməsinin həmzəsiz oxunduğunu dəlil olaraq gətirmişdir [20, 29].

Quran kəlməsinin həmzəli olduğunu qəbul edənlərin qənaətincə isə bu söz “fu`lanu” (فُعْلان) vəznində olub, həmzəlidir. Toplamaq mənasını verən “əl-qar`u” (القَرْء) kəlməsindən törəmişdir [3, 31]. Bu fikri Əbu Übeyd əl-Qasım ibn Səllam (v. 224/839) və Əbu İshaq əz-Zəccac (v. 311/923) müdafiə etmişdir [5, 74]. Adları çəkilən alimlərə görə Quran qissə, əmr, nəhy, vaz, vaiz, surə və ayələri və ya özündən əvvəlki səmavi kitabların meyvələrini bir yerə topladığı üçün ona bu ad verilmişdir [29, 18]. Ərəblər də “qaraə” (قرأ) felini toplamaq mənasında işlədərək “qara`tu-l-məə fi-l-havzi ” (قرأت الماءَ في الحوض ) yəni “suyu hovuzda topladım” deyirlər [4, 41].

Quran kəlməsi “oxumaq” mənasını verən “qaraə” (قرأ) kökündən törəmiş, الغفران vəznindən bir məsdərdir. Ancaq bu məsdər oxunan şey “əl-məqruu” (المقروء) mənasında məf`ul kimi işlədilmişdir. Bu fikri Əbul-Həsən Əli ibn Hazim əl-Lihyani (v. 215/830) müdafiə etmişdir [28, I, 52].

Quranın özü də aşağıda verəcəyimiz ayələri ilə bu fikri dəstəkləməkdədir:

ان علينا جمعه و قرآنه فاذا قرأناه فاتبع قرآنه.

“Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir. Biz onu (Cəbrailin dili ilə) oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə.” [əl-Qiyamət, 75/17-18]

İslam alimləri arasında ən güclü və özünə ən çox tərəfdar toplayan məhz bu fikrin olması qəbul edilməkdədir. Bu görüşə görə Quran kəlməsi “qaraə” (قرأ) kökündən törəmiş, məful mənasını verən və Məhəmməd peyğəmbərə möcüzə olaraq nazil olan ilahi kəlamın adıdır [25, I, 7]. Quran kəlməsinin həmzəsiz oxunuşu sadəcə qiraəti yüngülləşdirmək üçündür və onun həmzəsiz olmasına dəlalət etmir [25, I, 7].

Qiraət imamlarının mövzuyla bağlı oxunuşlarına gəldikdə, İbn Kəsir öz qiraətində istər vəqf, istərsə də vəsl halında, Həmzə isə ancaq vəsl halında Quran kəlməsini həmzəsiz olaraq “Quranun” (قُرَان ) şəklində oxumuşdur. Digər qiraət imamları isə öz qiraətlərində Quran kəlməsini həmzə ilə “Qur`anun” (قُرْءَانٌ) şəklində oxumuşlar [17, 42].

İslam alimləri Qurani-Kərimin bəzi yönlərini və xüsusiyyətlərini nəzərə alaraq ona müxtəlif təriflər vermişlər. Onlardan bəzilərini qeyd etməyi məqsədəuyğun hesab edirik:

1. əl-Fatihə surəsinin əvvəlindən ən-Nas surəsinin sonuna qədər Məhəmməd peyğəmbərə endirilən kəlmələrdir [25, I, 10; 17, 42].

2. Məhəmməd peyğəmbərə endirilən, müshəflərdə yazılmış, mütəvatir olaraq bizə gəlib çatan kəlamın adıdır [8, I, 21].

3. Məhəmməd peyğəmbərə vəhy yolu ilə endirilən, müshəflərdə yazılmış, mütəvatir olaraq bizə gəlib çatan və oxunması ilə ibadət edilən ilahi bir kəlamdır [25, I, 12].

Təriflərə baxdığımız zaman burada Qurani-Kərimin onu digər kitablardan fərqləndirən dörd əsas xüsusiyyəti diqqətimizi cəlb edir. Onlardan birincisi Qurani-Kərimin vəhy yolu ilə nazil olmasıdır ki, buradan da Quranın mənbəyinin məhz Allah-Təala olduğu başa düşülür. İkincisi, müshəflərdə yazılmış olması, yəni Qurandan başqa heç bir şeyin, hər hansı müqəddəs kəlamların belə ona qarışmaması deməkdir. Üçüncüsü, yəni mütəvatir olaraq bizə gəlib çatan dedikdə onun heç bir dəyişikliyə uğramadan, şaz (sənədi səhih olmayan) qiraətlərdən uzaq olması nəzərdə tutulur. Nəhayət dördüncü xüsusiyyət, oxunması ilə ibadət edilməsidir ki, bu da Quranın özündən başqa nə tərcüməsi, nə təfsiri, nə də qüdsi (məna etibari ilə Allaha istinad edilən) hədislər ilə ibadətin mümkün olmadığını göstərməkdədir.

İslam alimlərinin əksəriyyətinin fikrincə Quranın nazil olması üç mərhələdə həyata keçmişdir [30, 89-93]:

1) Birinci mərhələdə Quran cəm halında Lövhi-məhfuza endirilmişdir. Bunu Allah-Təala əl-Vaqiə surəsinin 77-79-cu ayələrində belə açıqlamışdır:

“(Sizə oxunan) bu (kəlam) çox qiymətli Qurandır. (O, Allah dərgahında) qorunub saxlanılan bir kitabdadır (Lövhi-məhfuzdadır). Ona yalnız pak olanlar toxuna bilər. (O) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir”.

Bəziləri Quranın bu ayələrdə Lövhi-məhfuza endirilməsini deyil, Lövhi-məhfuzda mövcud olmasını bildirildiyini deyirlər [22, 47].

2) Qurani-Kərim ikinci mərhələdə yenə də cəm halında Lövhi-məhfuzdan dünya səmasındakı Beytül-izzə deyilən bir yerə endirilmişdir.

Bu barədə Allah-Təala (əd-Duxan surəsinin 3-cü ayəsində) “Biz Quranı mübarək bir gecədə endirdik”; (əl-Qədr surəsinin 1-ci ayəsində) “Biz Quranı Qədr gecəsində endirdik”; (əl-Bəqərə surəsinin 185-ci ayəsində isə) “Ramazan ayı Quranın nazil olduğu aydır” deyə buyurur. Göründüyü kimi bu üç ayənin üçündə də eyni gecədən söhbət gedir. Yəni o, Ramazan ayındakı gecələrdən biri olan və Allah-Təalanın mübarək olaraq adlandırdığı Qədr gecəsində endirilmişdir.

Burada diqqətimizi çəkən başqa bir xüsus vardır ki, o da bu ayələrdə Quranın bir gecədə endiyinin vurğulanmasıdır. Halbuki, biz Quranın Məhəmməd peyğəmbərə iyirmi üç il ərzində hissə-hissə endirildiyini bilirik.

Yuxarıdakı ayələrə baxdığımız zaman görürük ki, bu ayələrdə Quranın endirilməsi “ənzələ” (أَنْزَلَ) və “unzilə” (أُنْزِلَ) felləri ilə verilmişdir. Ərəb dilində bu fellər cəm halında endirilməni bildirmək məqsədi ilə işlədilir [27, 96]. Quranın endirilməsindən bəhs edən ayələrdə “inzal” (اِنْزَالْ) məsdərinin işlədilməsi belə nəticəyə gəlməyə əsas verir ki, buradakı endirilmənin cəm halında endirilmə şəklində anlamaq daha doğrudur.

3) Üçüncü, yəni Quranın endirilməsinin sonuncu mərhələsində, artıq Quran mücərrəd aləmdən müşəxxəs aləmə keçməyə başlamış və Allahın hidayəti insanlara gəlib çatmışdır. Bu mərhələdə Qurani-Kərim dünya səmasındakı Beytül-izzədən Cəbrayıl adlı mələyin vasitəsi ilə Məhəmməd peyğəmbərin qəlbinə təxminən iyirmi üç il ərzində hissə-hissə endirilmişdir. Mövzuyla bağlı ayələrdə “nuzzilə” (نُزِّلَ) felindən istifadə olunmuşdur. Ərəb dilində isə “nuzzilə” (نُزِّلَ) feli hissə-hissə endirilməni bildirmək məqsədi ilə işlədilir. Sözü gedən nüzul prosesini Allah-Təala əş-Şuəra surəsinin 192-194-cü ayələrində belə ifadə edir:

“Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. Onu (Ruhuləmin) Cəbrayıl (günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə endirdi”.

Bu ayələrdən də göründüyü kimi Quranın Məhəmməd peyğəmbərə endirildiyi əsnada vəhyi ona Allahın vəhy mələyi Cəbrayıl çatdırmışdır. Çünki, Allahın da (əş-Şura surəsinin 51-ci ayəsində) buyurduğu kimi:

“Allah bir insanla ancaq vəhylə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə (göndərildiyi kimsəyə) Onun istədiyini vəhy edər...”

Mələk Cəbrayılın vəhyi necə alması qeyblə bağlı bir məsələ olduğu üçün bu barədə yalnız Peyğəmbərdən gələn xəbərlər əsasında bilgi almaq olar. Ancaq Peyğəmbər də bununla bağlı hər hansı bir məlumat verməmişdir. Ona görə də alimlər ancaq öz mülahizələrini söyləmişlər.

Alimlərdən Tiybi bu barədə qəti fikr söyləməkdən çəkinərək bəlkə Cəbrayıl Quranı mənəvi bir şəkildə və sürətli olaraq almış və ya Lövhi-məfhuzdan əzbərləyərək peyğəmbərə gətirmişdir fikrini irəli sürmüşdür.

Beyhəqiyə görə əl-Qədr surəsinin 1-ci ayəsindəki أَنْزَلْنَا kəlməsi “Biz mələyə Quranı eşitdirdik və onu anlatdıq. Sonra isə eşitdirdiyimizi və anlatdığımızı endirdik”, yəni Cəbrayıl Quranı bu şəkildə almışdır mənasını verir.

Vəhy sözü lüğətdə gizli danışmaq, əmr etmək, ilham etmək, işarə etmək, tələsmək, səsləmək, pıçıldamaq, məktub yazmaq [20, XV, 381-382] kimi mənalar verir.

Onu da qeyd etmək istərdik ki, islam alimləri arasında vəhyin təkcə Quran ilə məhdudlaşmadığı, Qurandan başqa da vəhyin olması xüsusunda fikir birliyi vardır. Ancaq alimlər bunların sayı və əhatə dairəsi haqqında ixtilaf etmişlər [10, 127]. Quran xaricində vəhyin varlığını qəbul edənlər, Quranda vəhyin sadəcə özü ilə məhdudlaşmadığına dair bir dəlilin nəyin ki, olmadığını, əksinə Peyğəmbərin Allah ilə Quran xaricində də əlaqəli olduğuna dair çox işarənin varlığını iddia edirlər [11, 106]. Bununla yanaşı klassik islam mənbəələrində Quran xaricində vəhyin varlığına aid rəvayətlər də mövcuddur. Peyğəmbərin “Mənə Quran və bir misli daha verilmişdir” [23, V, 10] buyurduğu nəql edilir. Qurtubi isə mövzu ilə bağlı fərqli bir rəvayət nəql etmişdir. Qurtubi təfsirində Həssən ibn Ətiyyənin “Rəsulullaha vəhy nazil olurdu (bu əsnada) Cəbrayıl ona vəhyi təfsir edəcək Sünnəti də gətirirdi” [33, I, 39] dediyini bildirir. Bu rəvayətə görə isə Məhəmməd peyğəmbərin Quranın təfsirinə dair söylədiklərinin ən azı vəhy məhsulu olduğu başa düşülür.

Digər klassik islam mənbələrindən də bu mövzu ilə bağlı başqa bir dəlili Əhlibeytdən nəql edilən “Allah Rəsulullaha Quranın tənzili ilə bərabər təvilini də öyrətdi” [31, I, 29] rəvayəti misal göstərə bilərik. Allahın Peyğəmbərlə olan əlaqəsi hər hansı bir şəkildə olursa olsun vəhy sayılacağına görə, bu rəvayəti Quran xaricində vəhyin varlığına dair dəlil göstərmək mümkündür. Bundan başqa Şeyx Saduqun, İmam Cəfər əs-Sadiqdən nəql etdiyi “Cəbrayılın Məhəmməd peyğəmbərə gətirdiyi Quran on yeddi min ayə idi” [34, IV, 446] şəklində rəvayəti də buna dəlil ola bilər.

Ümumiyyətlə vəhyə, Allah-Təalanın peyğəmbərləri vasitəsi ilə insanlara göndərdiyi ilahi əmrdir, kimi yığcam bir şəkildə tərif verirlər [6, 53]. Daha geniş bir tərif versək: Vəhy – Uca Yaradanın ümumi olaraq varlıqlara hərəkət tərzlərini bildirməsi, xüsusi olaraq insanlara çatdırmaq istədiyi ilahi əmr və qadağaların, xəbərlərin hamısını vasitəli və vasitəsiz bir tərzdə gizli və sürətli bir yolla peyğəmbərlərinə çatdırmasıdır [6, 19-20].

Qurani-Kərim isə vəhyi: göylərə, yer üzünə, mələklərə, bal arısına, Musanın anasına və İsanın həvarilərinə [Məryəm 19/11; əl-Ənam 6/112; əz-Zilzal 99/3-4; ən-Nəhl 16/68; əl-Maidə 5/111] öz vəzifələrini və hərəkət tərzlərini bildirdiyi şəkildə tərif edir.

Tərifdə də bildirildiyi kimi vəhy vasitəsiz və vasitəli olmaq surəti ilə iki yerə ayrılır.

Vasitəsiz vəhy: Allahın hər hansı bir vasitəçi göndərmədən varlıqlarla bilavasitə qurduğu rabitəyə deyilir. Vəhyin bu növü varlıqlara öz hərəkət tərzlərini bildirir.

Məsələn: Qurani-Kərimdə vasitəsiz vəhylə bağlı aşağıdakı ayələri misal göstərmək olar:

Yerə və səmaya xitab edilərək:

يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا * بِأَنَّ رَبَّكَ أَوْحَى لَهَا

“Məhz o gün yer öz xəbərlərini söyləyəcəkdir. Çünki (bunu) ona sənin Rəbbin vəhy etmişdir”.

وَ أَوْحَى فِي كُلِّ سَمَاءٍ أَمْرَهَا

“Və O, hər bir göyün işini özünə vəhy edib bildirdi”.

Canlılardan bal arısına:

وَ أَوْحَى رَبّكَ إِلَى النّحْلِ أن اتّخِذِى مِنَ الْجِبَالِ بُيُوتًا وَ مِنَ الشَّجَرِ وَ مِمَّا يَاعْرِشُونَ

“Və sənin Rəbbin bal arasına belə vəhy etdi: dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik”.

Buna aid əl-Ənfal surəsinin 12-ci ayəsində mələklərə xitabı, əl-Maidə surəsinin 111-ci ayəsindəki İsanın həvarilərinə və əl-Qəsəs surəsinin 7-ci ayəsində Musanın anasına göndərilən xitabı misal verə bilərik.

Vasitəli vəhy: Allahın istədiyi şeyləri elçi vasitəsi ilə peyğəmbərlərinə bildirməsinə deyilir. Vəhy dedikdə dini termin kimi məhz bu vəhy nəzərdə tutulur. Vasitəli vəhy özü də üç yerə ayrılır:

1. Bilavasitə vəhy: Burada Allah bir başa və vasitəsiz bir şəkildə vəhy edərək insanla danışır. Bu zaman Allah bir başa çox sürətli və gizli bir şəkildə bəzi məlumatları insanın qəlbinə ilham [36, 54] etmişdir. Bu cür vəhy həm Məhəmmədə peyğəmbərə, həm də Musanın anasına, həm də İsanın həvarilərinə göndərilmişdir.

2. Pərdə arxasından vəhy: Vəhyin bu növü, cisim üzərində səs, kəlam və söz yaradıb eşitdirmək surəti ilə həyata keçir. Burada sözü eşidən söz sahibini görə bilməz [14, 222-225]. Ancaq özünə yaxın bir yerdən xitab edən gizli bir varlığın mövcud olduğunu hiss edər. Qurani-Kərim həm Musa, həm də Məhəmməd peyğəmbərə belə bir rabitə imkanı verildiyini bildirir.

3. Mələk vasitəsi ilə: Bu vəhy zamanı Peyğəmbər bəşəri xüsusiyyətlərdən təcrid olunub, qeyri-bəşəri aləmlə (mələklər aləmi ilə) əlaqə qurması ilə mümkündür [7, 24].

Məhəmməd peyğəmbər həm vasitəli, həm də vasitəsiz vəhy almışdır. Vasitəli vəhyin mələk vasitəsi ilə gəldiyini qeyd etmişdik. Bu vəhy Rəsulullaha mələk vasitəsi ilə və səs vasitəsi ilə gəlmişdir. Cəbrayıl bəzən öz surətində, bəzən də insan surətində vəhy gətirmişdir. Quran vəhy mələyinin Məhəmməd peyğəmbərə iki dəfə öz surətində vəhy gətirdiyini xəbər verir [1, I, 125].

Mənbələr vəhyin Peyğəmbərə bəzən də "zınqırov" və ya "zəng" səsinə bənzər bir səslə gəldiyini xəbər verir [6, 28-29]. Rəsulullahın qəbul edərkən ən çox əziyyət çəkdiyi vəhy növü məhz səs vasitəsi ilə gələn vəhydir. Bu vəhyi də gətirən Cəbrayıldır. Ancaq bu vəhydə vasitəçi mələk görünmədən səs eşidilir.

Peyğəmbər bəzən də vasitəçi olmadan "sadiq röya"lar, nəbəvi ilham ilə, bir də pərdə arxasından danışaraq vəhy alırdı. Məhəmməd peyğəmbər vəhyi almağa elə sadiq röyalar [2, 17] vasitəsi ilə başlamışdır. Sadiq röyalar peyğəmbərin həyatında peyğəmbərlikdən əvvəlki ilk altı ayda görülmüşdür. Onu da qeyd edək ki, sadiq röyalar vasitəsi ilə heç bir Quran ayəsi nazil olmamışdır [35, 37].

Nəbəvi ilhama gəldikdə bu təfəkkür etmədən bilginin bir başa qəlb yolu ilə bilinməsidir. Belə bir ilham həm peyğəmbərlərə, həm də insanlara gələ bilər. Ancaq peyğəmbərlərə gələn ilhama nəbəvi ilham deyilir.

Pərdə arxasından danışaraq vəhy alma: Bu növ vəhylər zamanı peyğəmbər Allah-Təalanın səsini eşitdiyi halda onu görmür. Belə vəhyi yalnız Musa və Məhəmməd peyğəmbər almışdır. Peyğəmbərlər bu vəhyi aldıqları zaman bəşəri xüsusiyyətlərindən təcrid olunaraq maddi varlıqları tərk edib sanki ruhaniləşirlər. Məhəmməd peyğəmbər fərz namazları ilə əl-Bəqərə surəsinin son iki ayəsini bu vəhy növü ilə almışdır.

İlk nazil olan ayələrin əl-Ələq surəsinin ilk beş ayəsi [9, 1286] olduğu haqda alimlərin çoxu ittifaq etmişdir. Ancaq son ayənin hansı ayə olması haqqında müxtəlif fikirlər vardır. Bəzilərinə görə bu əl-Bəqərə surəsinin 281-ci ayəsi, bəzilərinə görə əl-Maidə surəsinin 3-cü ayəsi, bəzilərinə görə ən-Nisa surəsinin 176 və ya ən-Nəsr surəsinin 3-cü [28, I, 35-38] ayəsidir.

Qurani-Kərimin neçə il ərzində nazil olması haqqında bir neçə görüş vardır. Bu barədə ixtilafın yaranmasının əsas səbəbi isə Məhəmməd peyğəmbərin nübüvvətdən sonra Məkkədə neçə il yaşamasından qaynaqlanır. Bəziləri bu müddətin on, bəziləri on üç, bəziləri də on beş il olduğunu deyirlər. Ancaq bəzi mühəqqiqlər Məhəmməd peyğəmbərin Məkkədə on iki il beş ay on üç gün, Mədinədə isə doqquz il, doqquz ay doqquz gün yaşadığını qeyd edirlər [25, I, 44]. Bu görüş Məhəmməd peyğəmbərin nübüvvətindən sonra Məkkədə on üç, Mədinədə isə on il yaşadığı və beləliklə Quranın 23 il ərzində nazil olduğunu irəli sürənlərin görüşünə daha yaxındır [24, XIX, 2].

Burada kiçik bir haşiyə çıxaraq Qurani-Kərimin günümüzə qədər qorunaraq necə gəlib çatdığına dair münasibət bildirmək istərdik. Bildiyimiz kimi peyğəmbərə gələn vəhy həm əzbərlənməklə, həm də yazılmaq surəti ilə qorunurdu. Quranı ilk əzbərləyən məhz Peyğəmbər özü olmuşdur. Daha doğrusu Allah-Təala vəhy etdiyi

ayələri özünün də buyurduğu kimi peyğəmbərin qəlbinə yerləşdirirdi. Bu barədə əl-Ə`la surəsinin 6-cı ayəsində "Biz sənə (Quranı) oxudacağıq və sən onu unutmayacaqsan" buyurur. Bundan başqa peyğəmbər vəhy gəldiyi zaman onu unutmamaq üçün təkrar etdiyi zaman Allah-Təala "Ey Rəsulum, onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə! Çünki onu sənin qəlbində cəm etmək və onu (dilində) oxutmaq Bizə aiddir!" buyurur [əl-Qiyamə 16-17].

Beləliklə də Quranın peyğəmbərin qəlbində qorunmasının təminatçısının Allah-Təala olduğu buradan aydın olur.

Buna baxmayaraq hər il Ramazan ayında mələk Cəbrayıl gəlib o vaxta qədər nazil olan ayələri peyğəmbərlə birlikdə bir-birinə oxuyurdular [20, VII, 167]. Rəsulullahın vəfat etdiyi ildə isə bu hadisə iki dəfə təkrar olmuşdur və onlar Quranı iki dəfə xətm etmişlər.

Peyğəmbərlə yanaşı Quranı yüzlərlə səhabə əzbərləyirdi. Onlardan dörd Raşidi xəlifəsi ilə yanaşı, Təlhə, İbn Məsud, Hüzeyfə, Salim, Əbu Hüreyrə, Abdullah ibn Saib, Abdullah ibn Abbas, Abdullah ibn Amr əl-As, Abdullah ibn Zübeyr, Abdullah ibn Ömər, Muaz ibn Cəbəl, Zeyd ibn Sabit, Übey ibn Kəb, Aişə, Həfsə və Ümmü Sələmənin [16, 45] adlarını çəkmək olar.

Qeyd etdiyimiz kimi Rəsulullah eyni zamanda gələn ayələri vəhy katibləri dediyimiz oxumağı və yazmağı bilən səhabələrinə yazdırırdı [37, II, 64]. Onların sayı mənbələrə görə təxminən 40 nəfər olub. Onlardan da yenə 4 xəlifənin, Muğirə ibn Şöbənin, Muaz ibn Cəbəlin, Abdullah ibn Rəvahanın, Məhəmməd ibn Məsləmənin [32, 225] adlarını çəkmək olar.

Yazılan ayələr peyğəmbərə oxunur, əgər səhv olurdusa düzəldilirdi. Bu yolla endirilən vəhy müxtəlif sahifələrə köçürüldükdən sonra səhabələrə paylanırdı.

Quranın cəm edilməsi, yəni müshəf şəklində toplanması 1-ci Raşidi xəlifə Əbu Bəkrin zamanında baş verdi. Quranın cəm edilməsinin əsas səbəblərindən biri hicri 12-ci, miladi 633-cü ildə Müseyləmətul-kəzzab adı ilə məşhur olan Müseyləmə və ordusu ilə Yəmamə müharibəsində [18, II, 360-364] Quranı əzbər bilən çoxlu səhabənin şəhid [19, VI, 330] olmasıdır. Ömər ibn Xəttabın təklifi ilə Əbu Bəkr (əvvəlcə tərəddüd etsə də) buna razılıq verdi və bu iş Zeyd ibn Sabitin başçılığı ilə yaradılmış komissiyaya [13, 52] tapşırıldı. Zeyd Quranın cəm edilməsində aşağıdakı şərtləri qoydu: Quran ayələri gətirən şəxslər onu peyğəmbərin hüzurunda həm yazmış, həm də əzbərləmiş olmalı idilər. Və bu ayələrin peyğəmbərin hüzurunda yazılıb-yazılmadığını sübut etmək üçün iki şahid tələb olunurdu. Bundan sonra Zeyd Quran mətnlərini dərinin üstünə yazdıraraq yeni bir nüsxə meydana gətirdi.

Toplanan bu Quran öncə xəlifə Əbu Bəkrə [15, 151], sonra 2-ci xəlifə Ömərə, daha sonra Həfsəyə (Ömərin qızına) [25, I, 247; 13, 52] verilmişdir.

Quranın üçüncü xəlifə Osman ibn Əffanın dönəmində istinsaxına, yəni çoxaldılmasına isə iki səbəb göstərilir. Birinci səbəb Quran müəllimləri tələbələrə müxtəlif səhabələrin oxuma tərzini öyrədirdi. Buna görə də tələbələr arasında fikir ayrılığı yaranmışdı. Biri o birinin oxuma tərzini inkar edirdi. İkinci səbəb Azərbaycan və Ermənistan səfərlərində iştirak edən iraqlı və suriyalı əsgərlər Quranı fərqli surətdə oxumuşlar. Hər bir qrup öz qiraətinin doğru olduğunu iddia etmişdir. Bunu görən Hüzeyfə ibn Yəman məsələni Osman ibn Əffana xəbər vermişdir. Huzeyfənin bu xəbərdarlığından sonra Osman Həfsəyə xəbər göndərərək geri qaytarmaq şərti ilə Müshəfi ona göndərməsini tələb etdi. Bundan sonra Osman Zeyd ibn Sabit, Abdullah ibn Zübeyr, Səid ibn əl-As və Abdurrahman ibn əl-Harisədən [21, 19] ibarət bir komissiya yaratdı. Komissiya Quranın çoxaldılmasında aşağıdakı prinsipləri əsas aldı:

1. Əbu Bəkr zamanında toplanan Quran əsas alınmalıdır [22, I, 20].
2. Peyğəmbərin vəfatından əvvəl Cəbrayıla oxuduğu qiraət tərzi əsas alınmalıdır.
3. Komissiya üzvləri hər hansı bir fikir ayrılığına düşsələr Qureyş ləhcəsi əsas alınmalıdır [15, 258].
4. Bir neçə Müshəf yazılaraq müxtəlif bölgələrə göndərilməli və qiraəti bu nüsxəyə uyğun olmayan digər müshəf və səhifələr yox edilməlidir.
5. Təfsir və açıqlama məqsədi ilə yazılan bəzi xüsusi qeydlər çoxaldılan müshəflərə yazılmamalıdır [12, 191-192].

Zeyd ibn Sabitin başçılıq etdiyi komissiya Quranın istinsaxını, yəni çoxaldılmasını beş il ərzində həyata keçirtdi. Çoxaldılan bu nüsxələrin sayı haqqında fərqli rəvayətlər olsa da, əsasən, qəbul edilən görüş bu nüsxələrin sayının yeddi ədəd olmasıdır. Bunlardan biri Mədinədə saxlanmaqla digərləri Məkkə, Kufə, Bəsrə, Şam, Yəmən və Bəhreynə göndərilmişdir [5, 156].

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Bəkir. Topaloğlu. və digərləri. İslam dinin əsasları. trc. Adilə Tahirova, Bakı: Nurlar, 2010, 2 cild.
2. Bilmen. Ömer Nasuhi. Tefsir tarihi: usul-i tefsir veya mukaddime-i ilm-i tefsir. Ankara: Diyanet İşleri Reisliği, 1955, 180 s.
3. Cerrahoğlu. İsmail. Tefsir usülü. Ankara: Türkiye Diyanet Vakfı, 1995, 352 s.
4. Demirci. Muhsin. Kur`an müteşabihleri üzerine. İstanbul: Birleşik Yayıncılık, 1996, 200 s.
5. Demirci. Muhsin. Kur'ân tarihi. İstanbul: Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı (İFAV), 1997, 261 s.
6. Demirci. Muhsin. Tefsir usulü ve tarihi, İstanbul: Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı (İFAV), 1998, 314 s.
7. Duman. M. Zeki. Vahiy gerçeği. Ankara: Fecr Yayınları, 1997, 218 s.
8. Elmalalı. Hamdi Yazır. Hak dini Kur`an dili. İstanbul: Nebioğlu Neşriyat, 1960, 9 cild.
9. Esed. Muhammed. Kur'an mesajı: meal – tefsir. trc. Cahit Koytak, Ahmet Ertürk, İstanbul: İşaret Yayınları, 2004, 1375 s.
10. Güngör. Mevlüt. «Kur`ân`a göre Kur`ân'dan başka vahiy var mıdır?», Tefsirin dünü ve bugünü sempozyumu, Samsun, 1992, s.
11. Habibov. Aslan. İlk dönem şîi'nin tefsir anlayışı, AÜ. SBE., Ankara, 2007, 290 s.
12. Karaçam. İsmail. Kur`an-i kerim`in nüzulü ve kıraatı: Kur'an-ı kerim'in indiği yedi harf ve okunduğu yedi kıraat. Konya: Nedve Yayınları, 1974, 431 s.
13. Maşalı. Mehmet Emin. Kur'ân'ın metin yapısı – mushaf tarihi ve imlası-, Ankara: Avrasya Yayıncılık, 2004, 431 s.
14. Soyalan. Mehmet Yaşar. Vahiy savunması: Kur'an dışı vahyin imkânsızlığı, İstanbul: Anka Yayınları, 2005, 710 s.
15. Şen. Ziya. Kur'ân'ın metinleşme süreci. İstanbul: Ensar Neşriyat, 2007, 309 s.
16. Watt. W.M. Kur'ân'a giriş. trc. Süleyman Kalkan, Ankara: Ankara Okulu Yayınları, 2006, 271 s.
17. Yüksel. Ali Osman. İbn Cezeri ve tayyibetü`n-neşr. İstanbul: Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı, 1996, 461 s.

18. ابن الاسير، الكامل في التاريخ، تحقيق:حليل مامون شها ، بيروت، دار المعرفة، 1422\2002، 9 ج.

19. ابن كسير، البداية و النهاية، بيروت، مكتبة المعارف، 1981، 21 ج. ابن منظور. لسان العرب، بيروت: دار صادر، 1955، 15 ج.

20. ابو بكر عبد الله بن سليمان بن اشعاس ابن ابو داوود. كتاب المصاحف، ليدن: بريل، 1937، 362 ص.

21. ابو جعفرا بن جرير محمد بن جرير بن يزيد طبري. جامع البيان في تفسير القران، بيروت: دار الفكر، 1984، 30 ج.

22. أبو داود سليمان بن الأشعث السجستاني. سنن أبي داود، بيروت: دار الفكر، 1410\1990، 5 ج.

23. البخاري ابو عبد الله. صحيح البخاري في شرح كيرماني، القاهرة، 1937، 25 ج.

24. الزرقاني محمد عبد العظيم. مناهل العرفان في علوم القران، القاهرة: دار إحياء الكتب العربية، 1943، 2 ج.

25. الزركشي أبو عبد الله محمد بن بهادر بن عبد الله. البرهان في علوم القران، تحقيق: محمد أبو الفضل إبراهيم، القاهرة: دار إحياء الكتب العربية، 1957، 536 ص.

26. الزمخشري أبو القاسم جار الله محمود بن عمر. الكشاف عن حقائق التنزيل وعيون الأقاويل في وجوه التأويل، بيروت، 1987، 3 ج.

27. السيوطي جلال الدين. الاتقان في علوم القران، بيروت: المكتبة الثقافية، 1973، 2 ج.

28. الصالح صبحي. مباحث في علوم القران، بيروت: دار العلم، 1969، 388 ص.

29. عبيدات محمود سالم. دراسات في علوم القران، عمان: دار عماد للنشر والتوزيع ، 1990، 2 ج.

30. العياشي محمد بن مسعود. تفسير العياشي، تحقيق: هاشم رسولي محلتي، بيروت، مؤسسة العالم للمطبوع، 1991، 2 ج.

31. عيسى احمد عبد الرحمن. كتاب الوحي، الرياض: دار اللواء، 1980، 566 ص.

32. القرطبي محمد بن أحمد الأنصاري. الجامع لاحكام القران، القاهرة: دار القلم، 1966، 20 ج.

33. كليني ابو جعفر محمد بن يعقوب بن اسحاق. الاصول من الكافي، تصحيح: علي اكبر الغفاري، بيروت: دار سعاب، 1980، 4 ج.

34. مناع القطان. مباحث في علوم القرآن ، بيروت : مؤسسة الرسالة، 1981، 400 ص.

35. نجار عبد المجيد. خلافة الإنسان بين الوحي والعقل، بيروت: دار القرب الإسلامي، 1987، 139ص.

***36.*** اليعقوبي احمد بن اسحاق. تاريخ يعقوبي، ترجمه: محمد ابرهيم، تهران: بنكاه ترجمه و نشر كتاب، 1964، 2 ج.

**XÜLASƏ**

Bu məqalədə Quran sözünün lüğəvi və terminoloji mənalarına aydınlıq gətirdikdən sonra onu Məhəmməd peyğəmbərə qədərki və Məhəmməd Peyğəmbərə nazil olma mərhələləri araşdırılmışdır. Quran əvvəlcə lövhi-məhfuza, sonra dünya səmasındakı Beytul-İzzə adlanan yerə, ondan sonra da 23 il ərzində hissə-hissə Məhəmməd Peyğəmbərə endirilmişdir.

Quranın kitab şəklində cəm edilməsi birinci Raşidi xəlifəsi Əbu Bəkrin rəhbərliyi ilə həyata keçirilmişdir. Quranın istinsaxı, yəni çoxaldılması isə üçüncü Raşidi xəlifəsi Osman ibn Əffanın əmri ilə baş tutmuşdur.

**SUMMARY**

The article focuses on the clarification of the linguistic and terminological meanings of the word “The Koran” as well as on its stages of revelation to Prophet Muhammad and before him. At first, the Koran was descended to the lawh al-mahfuz, then to the place in the world’s sky called Bait al-Izza, and at last, to the Prophet Muhammad in parts, gradually over a period of 23 years.

The Koran was firstly collected in a single manuscript during the first Rashidi Caliph Abu Bakr`s reign. The Istinsakh of the Koran (its copying) was realized by the order of the third Rashidi Caliph Uthman ibn Affan.

**РЕЗЮМЕ**

После того как была принесена ясность в лингвистические и терминологические смыслы слова Коран были исследованы период до пророка Мухаммеда и период откровения пророка Мухаммеда в этой статье. Коран был написан в начале на ловхи-махфуз, затем помещен на небо мирское названное бейтуль-изза, и в итоге снисходил пророку Мухаммеду по частям в течение 23-х лет.

Собрание Корана в виде книги состоялось под руководством первого Халифа Рашиди Абу Бакра. Истинсах Корана, то есть его воспроизведение состоялось уже под руководством третьего Халифа Рашиди Усман бин Аффана.

**Çapa tövsiyə etdi:** **i.f.d.A.M.Şirinov**